# "Qara qan"ın təqdimatı






Fevralın 24-də Bakı Kitab Mərkəzində yazıçı-publisist, Əməkdar jurnalist Fazil Güneyin tarixi roman-trilogiyasının – "Qara qan" əsərinin təqdimatı keçirildi. Kitab 3 hissədən, 1075 səhifədən ibarətdir. Redaktoru Məzahir Süleymanzadədir Qeyd edim ki, bir müddət əvvəl trilologiyaya daxil olan 2 kitab ayrıca çap olunub oxucuların ixtiyarına verilib. Bu nəşr 3 kitabı özündə cəmləşdirərək 1193-cü ilin iyunundan 2016-cı ilin payızına qədər olan bütün hadisələri sanki bir epopeya, bir ensiklopediya kimi əks etdirir. "Qara qan" 20 Yanvar, Xocalı hadisələrindən sonrakı hadisələrlə başlayıb Aprel döyüşləri, Cocuq Mərcanlı və digər torpaqların alınması hadisələri ilə bitir. Yazıçının ən böyük arzusu bu əsərin davamını qələbə mövzunda yazmaqdır. Buna böyük ümid bəsləyir, həmin günü çox da uzaqlarda olmadığına inanır.

**TƏQDİMAT**

"Qara qan" tarixi roman-trilogiyasının təqdimat mərasimini Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva açdı: "Xocalı faciəsinin 28-ci ildönümü ərəfəsində Qarabağ ağrılarından bəhs edən belə bir kitabın təqdimatı mühüm əhəmiyyət daşıyır." Günel xanım çıxışının davamında qonaqların diqqətinə çatdırdı ki, XX əsrin sonlarında Azərbaycan ictimai-siyasi həyatında gerçəkləşən hadisələr, müstəqillik ab-havası Fazil Güney yaradıcılığının istiqamətini daha çox jurnalistika sahəsinə yönəldib. 1991-ci ilin əvvəlində yaradılan "Assa-İradə" Azərbaycan Beynəlxalq Xəbər Agentliyinin, 1997-ci ildən çıxmağa başlayan ingiliscə "AzerNews" qəzetinin təsisçisi və baş redaktoru, "Azeri Observer" jurnalının direktoru olan Fazil Güney Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görüb. "Fazil müəllim kitab üzərində uzun illər çalışıb. Birinci hissəsini 1995-ci ildə yazmağa başlayıb. Və ilk kitab 2002 və 2003-cü illərdə, 2-ci kitab isə 2011-ci ildə çap olunub. Romanın 3-cü hissəsində Aprel döyüşləri zamanı baş verən hadisələr və xalqımızın mübarizlik əzmi əksini tapıb. Ümumilikdə roman-trilogiyada xalqımızın başına gətirilən müsibətlər bədii dillə oxucuya çatdırılır. İnanıram ki, bu bədii əsər bütün zamanlarda öz aktuallığını qoruyub saxlayacaq. Bu kitab fundamental bir əsərdir. Onu birdəfəyə oxuyub bir kənara qoymaq mümkün deyil. Yəni oxuyub araşdırmaq, dərk etmək lazımdır. Qarabağ hadisələri haqqında hamımızın, təbii ki, məlumatı var. Amma bu əsərdə həmin hadisələrə tamam başqa prizmadan baxılır".

Sonra Günel xanımın təklifiylə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Günel xanım sözü tədbirin aparıcısı "İrşad" Dini Araşdırmalar Mərkəzinin direktoru Rafiq Əliyevə verdi. Rafiq Əliyev qonaqları salamlayaraq, kitab haqqında qısa məlumat verdi. Daha sonra çıxış etmək üçün yazıçı Kənan Hacını mikrofon qarşısına dəvət etdi. Kənan Hacı kitab haqqında geniş bir məqalə yazdığını bildirərək davam etdi: "Qara qan" tarixi roman-trilogiyası qətiyyən təxəyyül məhsulu deyil. Buradakı bütün hadisələr reallıq əsasında qurulub. Roman Azərbaycan həqiqətlərini, Ermənistanın işğalçı siyasətini əks etdirən, çox dərin mətləblərə toxunan, hadisələri olduğu kimi, real təsvir edən və səsimizi dünyaya çatdıra biləcək bir əsərdir. Təsvir olunmuş xalqımızın əsrlər boyu yadelli işğalçılara qarşı apardığı ölüm-dirim savaşında göstərdikləri qəhrəmanlıqlar, dözüm, mətanət, vətənə bağlılıq hissləri gələcək nəslin vətənpərvərlik ruhunda yetişməsinə böyük xidmət göstərəcək."

Tədbirin davamında aparıcı Rafiq Əliyev sözü AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin müdiri, professor İsmayıl Kazımova verdi. Professor əsərin məziyyətlərindən danışaraq qeyd etdi: "Baş verən hadisələri yazmaq, nizama salmaq, bədii əsər kimi ortalığa çıxarmaq özü bir ayrı sənətkarlıqdır. Mən bildirmək istəyirəm ki, əsərin üslubu və bədii dili çox gözəldir. Mətn boyu Azərbaycan dilinin saflığı, gözəlliyi qorunub saxlanılır. Hadisələrin bədii formada yüksək səviyyədə əks olunması Fazil Güneyin əsl yazıçı olmağından xəbər verir.

İlahiyyat Universitetinin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov: "Xocalı faciəsi bizim ən ağrılı faciəmizdir. Mən özüm Cəbrayıldanam. Hər gün xəyalən ora gedib-qayıdıram. Mənim üçün də bu ağrı-acı doğmadır. Demək istəyirəm ki, Fazil müəllim bir neçə istiqamətdə çalışır. Həm şərqşünas kimi, həm jurnalist kimi, həm yazıçı kimi çox gözəl əsərlər ortaya qoyur. Mənim diqqətimi bu çəkdi ki, biz son vaxtlar qara sözündən çox istifadə edirik. Qara qan, qara yanvar və s. İndiyə qədər torpaqlarımızın 20 faizi işğal olunub. Və bu "qara günlər"in davam etməməsi üçün biz nəsə etməliyik. Bu gün prezidentimiz yüksən tribunalarda, konfranslarda danışıqlar aparır. Yəni bu istiqamətdə siyasi arenada çox işlər görülür. Bizim hər birimiz də bir vətəndaş kimi, insan kimi əlimizdən gələni etməliyik. Universitetimizdə də bununla bağlı müxtəlif tədbirlər keçiririk. Düşünürəm ki, belə kitabların yazılmasına, filmlərin çəkilməsinə böyük ehtiyacımız var".

Tədbirin davamında Fazil Güneyin gözəl nəvələri Dəniz və Humay babalarını təbrik etdilər, boynuna sarılaraq öpüb qucaqladılar. Bu, tədbirə xüsusi ovqat bəxş etdi.

Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov və ehtiyatda olan polkovnik Şair Ramaldanov da tədbirdə çıxış edərək Fazil Güney yaradıcılığı, "Qara qan" romanı haqqına danışdılar. Bildirdilər ki, vətənpərvərlik mövzusunda bu cür əsərlərin yazılması olduqca vacibdir. Bundan başqa, eyni zaman da vətənpərvərlik mövzusunda verilişlərin, mahnılarım, şeirlərin də çox olmasını arzu etdilər. Yaşar Aydəmirov bu əsər əsasında yaxşı bir filmin çəkilməsinin arzusunda olduğunu bildirdi.

Tədbirdə iştirak edən digər qonaqlar – AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin müdiri, professor İsmayıl Kazımov, şair Nazim Əhmədli və digər qonaqlar da çıxış etdilər. Çıxışlar zamanı romanın bədii-publisistik əhəmiyyətindən, vətənpərvərlik, eləobaya məhəbbət, qəhrəmanlıq ruhunda yazıldığı, doğma yurdundan, evəşiyindən məhrum olan, qovulan, işgəncələrə məruz qalan həmvətənlərimizin acı taleyindən bəhs olunmasından danışıldı. Həmçinin ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər, hərbi və siyasi gerçəkliklər həm bədii, həm də inandırıcı şəkildə təqdim edildiyi qeyd olundu.

Əsərin redaktoru Məzahir Süleymanzadə də əsər haqqında fikirlərini bildirdi. Onu ilk dəfə necə böyük ürək ağrısıyla oxuduğunu, əsərin yüksək keyfiyyətlərindən, bədii dilindən, orada bəhs edən mövzulardan, obrazlardan, hadisələrdən ətraflı şəkildə qonaqlara məlumat verdi.

Sonda hər kəsə təşəkkürünü bildirən Fazil Güney bu əsərin əsl müəllifi Azərbaycan xalqı, onun mərd, mübariz oğul və qızları olduğunu dedi: "Bu əsəri mən yazmamışam. Xalq yazıb. Mən sadəcə olanların üzünü köçürmüşəm!" Müəllif əsəri yazmaqda məqsədinin Qarabağ müharibəsini bədii ədəbiyyatın dili ilə daha geniş oxucu kütləsinə çatdırmaq olduğunu, ömrünün uzun illərini bu işə sərf etdiyini bildirdi: "Qarabağ davası indi təkcə cəbhədə deyil, beynəlxalq forum və toplantılarda, idman meydançalarında, konsert salonlarında, ədəbi, tarixi əsərlərdə, bir sözlə, həyatın bütün sahələrində gedir.".

Tədbirin yekununda iştirakçılar müəllifə kitab imzalatdılar, xatirə şəkili çəkdirdilər...

**Xanım Aydın**

Kaspi 2020.- 29 fevral.-2 mart.- S.12.